# Azərbaycan-Özbəkistan əlaqələri bütün türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verir

**Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan lideri Şavkat Mirziyoyevin dəvəti ilə avqustun 22-23-də Özbəkistanda səfərdə olacaq. Səfər çərçivəsində Daşkənddə Özbəkistan və Azərbaycan liderlərinin sədrliyi ilə yüksək səviyyəli danışıqların və dövlətlərarası ali şuranın ilk iclasının keçirilməsi planlaşdırılır. Strateji tərəfdaşlıq və çoxtərəfli əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məsələləri gündəliyə daxil edilib. Qarşılıqlı ticarətin artırılması, yeni əməkdaşlıq layihələri portfelinin formalaşdırılması, işgüzar əlaqələrin, o cümlədən regionlararası mübadilənin inkişafı, nəqliyyat-kommunikasiya potensialının reallaşdırılması, mədəni-humanitar əlaqələrin aktivləşdirilməsi və digər məsələlər diqqət mərkəzində olacaq.**

Etibarlı tərəfdaş, sözü ilə əməli bir olan, dünyada sülhün, əmin-amanlığın bərqərar olunmasına mühüm töhfələr verən müstəqil Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra bölgədə tamamilə yeni reallıq yaradıb. Regionda və dünyada nüfuzu artan Azərbaycanın bölgədə sülhün bərpası prosesində irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünyanın supergücləri və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilməkdədir. Azərbaycanın həyata keçirdiyi irimiqyaslı enerji və nəqliyyat layihələri regiondakı digər dövlətlərin də inkişafına, xalqların rifahına xidmət edir. Məhz bu amillər Azərbaycan ilə müxtəlif ölkələr arasında ikitərəfli əlaqələrin sürətli inkişafına təkan verir. Bu gün ölkəmiz bir çox dövlətlərlə güclü dostluq siyasəti qurur. Türk dövlətləri ilə xarici siyasətində isə daha çox qardaşlıq münasibətlərinə üstünlük verir. Belə ölkələrdən biri də Özbəkistan Respublikasıdır. Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya ölkələri, həmçinin Özbəkistan ilə münasibətlərin inkişafı mühüm yer tutur. Mərkəzi Asiyanın ən böyük dövlətlərindən olan və sürətlə inkişaf edən Özbəkistan ilə Azərbaycan arasında əlaqələr xüsusilə son illərdə genişlənir.

Hər iki ölkənin dövlət başçılarının dostluq və qardaşlıq münasibətləri, qarşılıqlı səfərləri, keçirilən yüksək səviyyəli görüşlər strateji tərəfdaşlığın daha da güclənməsinə münbit şərait yaradıb. İmzalanmış 160-dan çox sənəd, o cümlədən "Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə" dayanıqlı hüquqi baza yaradır. Prezident İlham Əliyevin Mərkəzi Asiya Dövlət başçılarının 5-ci Məşvərət Görüşündə fəxri qonaq qismində iştirakı Azərbaycanın bu ölkələrlə qardaşlıq münasibətlərinin əhəmiyyətli göstəricisidir. Özbəkistan tərəfindən işğaldan azad edilmiş Füzuli şəhərində 960 şagird yerlik məktəb binasının tikildiyi xüsusi vurğulanmaqla, bu ərazilərin yenidən qurulmasındakı iştirakına görə qardaş ölkəyə hər fürsətdə minnətdarlıq ifadə olunur. Özbəkistanla əməkdaşlıq çoxvektorludur və iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir, birgə layihələr, qarşılıqlı investisiya qoyuluşları həyata keçirilir. Münasibətlərin sürətli inkişafı ticarətin dinamikasına da müsbət təsir göstərir. Ticarət dövriyyəsinin artırılması üçün geniş potensial var və bu sahədə təşəbbüslərin intensivləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Cari ilin 2-3 may tarixlərində Daşkənddə Üçüncü Beynəlxalq İnvestisiya Forumu keçirilib. Tədbirdə dünyanın 93 ölkəsindən dövlət və hökumət başçıları, nazirlər, investorlar və ekspertlər, ümumilikdə 2500-dək nümayəndə iştirak edib.

Bu yüksələn temp onu deməyə əsas verir ki, hər iki dövlət qardaş, dost, strateji müttəfiqlərdir. Qarşılıqlı səfərlər, Özbəkistanın Azərbaycan və digər türk dövlətləri ilə münasibətləri, bunun fonunda sərgilədiyi xarici siyasət əlaqələrin gələcəyi üçün önəmli faktordur. Özbəkistanla Azərbaycan arasında münasibətlər keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Qarşılıqlı səmərəli əməkdaşlıq üçün yeni perspektivlər açılmaqdadır. Bunun əsasını çoxsaylı dövlətlərarası, hökumətlərarası və idarələrarası razılaşmaları əhatə edən böyükmiqyaslı hüquqi müqavilə çərçivəsi təşkil edir. İqtisadi-ticarət, investisiya tərəfdaşlığımız genişlənir. Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması da investisiya əməkdaşlığının, işgüzar dairələr arasında dialoqun inkişafına yeni təkan verəcək. Bundan başqa, enerji, regionlararası əməkdaşlıq, sənaye, xüsusilə avtomobil sənayesi, tekstil, kənd təsərrüfatı, nəqliyyat-tranzit, səhiyyə, turizm, humanitar və digər sahələr üzrə əlaqələrin inkişafı iqtisadi əməkdaşlığımızın gündəliyində olan məsələlərdəndir.




Ötən il Şuşada keçirilmiş Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclası, həmçinin Azərbaycan-Özbəkistan Regionlararası Forumu, Azərbaycan-Özbəkistan İşgüzar Şurası iqtisadi-ticarət münasibətlərinin inkişafında mühüm rol oynayır. Biznes subyektlərinin işbirliyinin təşviqi üçün yeni imkanların, həmçinin energetika sahəsində birgə fəaliyyət üçün geniş perspektivlərin araşdırılması, ticarət-iqtisadi və investisiya əməkdaşlığının genişləndirilməsi haqqında Yol Xəritəsinin icrası hər iki tərəfin diqqət mərkəzindədir. Azərbaycanın əlverişli investisiya mühiti, iqtisadi islahatlar, sənaye zonaları, Ələt Azad İqtisadi Zonası, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələr Özbəkistan sərmayədarları üçün maraq kəsb edir.

Ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olub. Dahi şəxsiyyət Heydər Əliyevin özbək xalqı tərəfindən sayılıb seçilməsi, onun bir lider kimi bütün dünyada və əsasən də türk dövləti arasında mövcud olan nüfuzunun sübutu kimi Daşkəndin mərkəzində Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş guşənin yaradılması hər bir Azərbaycanlı üçün qürurvericidir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Heydər Əliyev haqqında fikirləri həqiqətən də qardaş ölkədə Azərbaycan xalqının Ümummilli Liderinə dərin rəğbət və böyük hörmətin olduğunu nümayiş etdirir. Heydər Əliyev özbək xalqına böyük hörmət və dərin sevgi ilə yanaşıb. Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri zamanı qardaş ölkənin paytaxtı Daşkəndin mərkəzində Ulu öndər Heydər Əliyevin böyük memorial kompleksi ucaldılmış meydanda dediyi sözlər əslində hər bir azərbaycanlının qəlbindən keçən fikirlər idi. Prezident İlham Əliyev çıxışı zamanı onu da vurğulayıb ki, Özbəkistan ölkəmizin ərazi bütövlüyünün bərpası işində hər zaman Azərbaycanın yanında olub. Azərbaycan xalqı ən ağır dövrdə özbək xalqının qardaşlıq dəstəyini hiss edirdi. Qardaş Özbəkistan bizim haqq savaşımızda ədalətli mövqeyimizi dəstəkləmişdir. Özbəkistanın ərazi bütövlüyümüzlə bağlı məsələlərdə beynəlxalq təşkilatlar qarşısında mövqeyi də hər zaman birmənalı olub. Türk dövlətlərinin belə bir birliklə bir-birinə dəstək olması, şübhəsiz ki, beynəlxalq ictimaiyyətin mövqeyinə təsir göstərə bilir. Bu birlik özlüyündə dünyada yeni bir güc mərkəzi formalaşdırır. Bu da, öz növbəsində, ölkələrimiz arasında münasibətlərin tarixində unudulmaz hadisədir.

Hazırda Azərbaycan-Özbəkistan əlaqələrinin yüksək səviyyəyə çatmasında Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin şəxsi münasibətləri həlledici rol oynayır. Azərbaycan Prezidenti Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Səmərqənddə keçirilmiş sammitində fəxri qonaq qismində iştirak edib, Türk Dövlətləri Təşkilatının zirvə görüşündə iştirak etmək üçün Özbəkistanda səfərdə olub. Azərbaycanın Özbəkistanla daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verir.

**Mustafa KAMAL,**
**"Respublika".**